# 20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR!


# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №01 (7490) | 17 yanvar 2021-ci il | Bazar | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## Azərbaycan Respublikasında 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış “Xəmsə”si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş “Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında” qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə ulu öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq **qərara alıram:**

1. 2021-ci il Azərbaycan Respublikasında “Nizami Gəncəvi İli” elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Nizami Gəncəvi İli” ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham ƏLIYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri,**
**5 yanvar 2021-ci il**

## Müqəddəs and yerimiz olan Şəhidlər Xiyabanıda abadlıq-bərpa işləri aparılır



Şəhidlər xiyabanınının hasarında suvaq işləri görülür, giriş hissəsində məhəccərlər quraşdırıılır, ərazidə üzlük işləri aparılır. Xiyabanın torpaq ərazisi şumlanır, ağaclar budanır. Şəhidlər Xiyabanı ilə yanaşı ətraf ərazi də abadlaşdırılacaq, bəzək və gül kolları əkiləcəkdir.

Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Şəhidlər Xiyabanında görülən işlərlə mütəmadi yaxından tanış olur, aidiyyəti üzrə tapşırıqlar verir.

Hər bir Şirvan sakini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya milli-mənəvi dəyərlərimizə, şəhidlərimizə, qazilərimizə, onların ailə üzvlərinə göstərdikləri diqqət və qayğıya görə minnətdardır. Noyabrın 8-də ölkə başçısının xanımı ilə birlikdə Qarabağın baş tacı Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər Xiyabanından elan etməsi hər bir azərbaycanlıda qürur və iftixar hissi doğurur.

Şirvan sakinlərinin müqəddəs ziyarətgahına çevrilən Şəhidlər Xiyabanında aparılan yenidənqurma işləri Vətən uğrunda şəhid olanların qəlbimizdə əbədi yaşayacağına, hər zaman hörmət və ehtiramla yad ediləcəyinə əyani sübutdur.

Şəhidlər ölməz, Vətən bölünməz!

**Torpaq su ilə qarışanda palçıq, qanla qarışanda Vətən olur! Elə ona görə də dünyada ən şirin nemət olan canlarını torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qurban verən, qanlarıyla bu torpağı başdan-başa müqəddəsləşdirən şəhidlərimizin ruhuna hörmət etmək, onların xatirəsini ehtiramla yad etmək hər birimizin vətəndaşlıq borcudur. Vətənin qəhrəman övladlarının torpağa qovuşduğu Şəhidlər Xiyabanı bu gün ən əziz ziyarətgahımıza çevrilib. Çünki Vətən onu qoruyan, canından əziz sayan oğullar sayəsində var olub həmişə.**



Şirvan şəhəri Birinci Qarabağ müharibəsində torpaqlarımızın ərazi bütövlüyü uğrunda 137 şəhid verib, 3 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Ali Baş Komandanın rəhbərliyi ilə Müzəffər Ordumuzun sentyabrın 27-sindən başladığı zəfər yürüşündə şirvanlılar da misilsiz şücaət göstərib. İkinci Qarabağ müharibəsində Şirvan şəhər Şəhidlər Xiyabanında daha 20 şəhidimiz dəfn edilib.

Şirvan şəhərində şəhidlərimizə, onların ailə üzvlərinə həmişə xüsusi diqqət və qayğı göstərilib. Şəhər rəhbərliyinin şəhid ailələrinin sosial problemləri ilə yaxından maraqlanması, onları vaxtında həll etməsi, şəhidlərimizin uyuduğu Xiyabanın, onların xatirəsinə ucaldılmış abidələrin, bulaqların yenilənməsi, əsaslı şəkildə təmir edilməsi bunun bariz nümunəsidir.

Artıq İkinci Qarabağ müharibəsində şəhid olanların məzarüstü abidələrinin düzəldilməsi üçün hazırlıq işləri başa çatdırılıb, məzarüstü abidələrin quraşdırılması işləri aparılır, yerə tamet plitələr düzülür. Şəhidlər Xiyabanının işıqlandırılması üçün yeni işıq dirəkləri quraşdırılır, məzarların ətrafında bardyurların düzəldilməsi işləri aparılır.

**Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı və aparatın məsul işçiləri, Şirvan Şəhər Bələdiyyəsinin sədri və ictimaiyyət nümayəndələri Vətən müharibəsi şəhidlərinin ailələrini ziyarət edib.**



Bütün şəhidlərimizə Allahdan rəhmət diləyən şəhər İcra Hakimiyyətinin başçısı

## Şirvan şəhərində şəhid ailələri mütəmadi olaraq ziyarət edilir

İlqar Abbasov qeyd edib ki, onlar əsil tarix yazdılar, Siz sağ olun ki, belə mərd övladlar böyüdüb, boya-başa çatdırmısınız. Bilirsiniz ki, şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması dövlət siyasətin əsas istiqamətlərindən biridir. Ulu öndər Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə gələndən sonra şəhid ailələrinin hüquqlarının müdafiəsi ilə bağlı müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul olunmasını təmin etmişdir.

Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevanın şəhidlərimizə, şəhid ailələrinə diqqət və qayğısı hər bir dövlət məmuru və sıravi vətəndaş üçün örnəkdir. Şəhid ailələrinin mənzillə təmin olunması, onlara güzəştli ipoteka kreditlərinin, torpaq sahələrinin, müavinət, pensiya və Prezident təqaüdünün verilməsi, şəhid övladlarının təhsil haqlarının dövlət tərəfindən ödənilməsi, şəhid adlarının əbədiləşdirilməsi ilə bağlı atılan addımlar dövlət tərəfindən göstərilən diqqət və qayğının təzahürüdür. Bu siyasətin davamı olaraq, Şirvan şəhərində də şəhidlərimizin əziz xatirəsi həmişə uca tutulub, ailələrinə hörmət və ehtiram göstərilib, şəhidlərin məzarları vaxtaşırı ziyarət edilib, şəhid ailələrinin sosial problemlərinin vaxtında həlli olunması istiqamətində lazımi işlər görülüb və bundan sonra da görüləcəkdir. Belə ki, 2020-ci il ərzində şəhər İcra Hakimiyyəti tərəfindən I Qarabağ müharibəsi şəhidlərinin ailələrinə, aztəminatlı ailələrə müxtəlif məbləğlərdə maddi yardımlar göstərilmiş, şəhərin ictimaiyyət nümayəndələrinin iştirakı ilə Vətən müharibəsi şəhidlərinin dəfn mərasimləri təşkil olunmuş, ailələrinə müxtəlif yardımlar göstərilmiş və şəhidlərin qəbirüstü abidələrinin inşası işlərinə başlanılmışdır.

Şəhər İcra Hakimiyyətinin başçısı şəhid ailələrinin mənzil-məişət şəraiti ilə yerində tanış olduqdan sonra onların problemlərinin həlli istiqamətində müvafiq tapşırıqlar verərək, aidiyyəti üzrə lazımı orqanlara müraciət ediləcəyini bildirdi.

Şəhid ailələrinin üzvləri göstərilən dəstəyə görə Ölkə başçısına, Birinci vitse-prezidentimizə minnətdarlıqlarını bildiriblər.

## Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı qaziləri qəbul edib



**Torpaqlarımızın işğaldan azad olunması uğrunda Vətən müharibəsində döyüşərək yaralanan Şirvan şəhər qazilərinə və şəhid ailələrinə mütəmadi olaraq xüsusi diqqət və qayğı göstərilir. Şəhər icra hakimiyyətində yaradılmış işçi qrupu artıq 69 qazi ailəsi ilə evlərində görüşərək onların qayğıları, səhhəti, müalicələrinin gedişi ilə maraqlanıb.**

Həmçinin bu günlərdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov bir qrup Vətən müharibəsi qazisini qəbul edib. Öncə Qalib Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun qazandlığı Zəfər münasibətilə onları təbrik edib və xidməti borclarını ləyaqətlə yerinə yetirdiklərinə görə onlara öz təşəkkürünü bildirib.

Ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyeva tərəfindən Qarabağ qazilərinə göstərilən dövlət qayğısından söz açan icra hakimiyyətinin başçısı qeyd edib ki, Şirvan şəhərində də qazilərə və şəhid ailələrinə həssas münasibət, diqqət və qayğı həmişə ön planda olub. Dövlətin bu təbəqədən olan insanlara göstərdiyi qayğısının nəticəsidir ki, hər keçən gün qanunlara edilən mütərəqqi dəyişikliklərlə onların sosial rifah halının yaxşılaşdırılması istiqamətində uğurlu addımlar atılır.

Sonra Vətən müharibəsində iştirak edərək sağlamlığını itirən qazilər-Əhmədov Zaur Zakir oğlu, Nəsirov Vüsal Teymur oğlu və Heydərov Ramin Moğvil oğlunun valideynləri onları narahat edən problemlərdən danışıblar. İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qazilərin problemlərinin bir qisminin tezliklə həll olunması üçün aidiyyəti üzrə göstəriş verib, digər mühüm məsələlərə isə “Yaşat” fondu tərəfindən baxılacağını bildirib.

İcra başçısı qəbula yekun vuraraq istər dövlət, istərsə də şəhər rəhbərliyi tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananlara və şəhid ailələrinə göstərilən diqqət və qayğının bundan sonra da davam etdiriləcəyini bildirib.

Görüşdə iştirak edən ailələr onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını ifadə ediblər.

VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

# TOPÇU EMİL HÜMBƏTOV

*«Əgər şəhid varsa, deməK vətən var, Şəhidlər dünyada ən böyük haqdır»*

**Milli Qəhrəmanımız şəhid jurnalist Alı Mustafayevin «Şəhidlər» şeirindən də aydın olur ki, şəhid varsa, deməK vətən var, şəhidlər ən böyük haqdır, onların yeri allahın dərgahıdır.**

Bu günlərdə M.Ə.Rəsulzadı küçəsindəki beşmərtəbəli 3 nömrəli binanın yanından keçərkən binanın ön hissəsinə vurulmuş bir xatirə lövhəsi diqqətimi cəlb etdi. Lövhənin yuxarı hissəsində cavan, məğrur baxışlı hərbi geyimdə şəhidimizin əksi vurulmuşdu. Ora yaxınlaşdım. Xatirə lövhəsinin qarşısında dayanıb gözünü qara mərmərə həkk olunmuş şəkildən çəkməyən bir nəfərin doluxsunmuş gözlərinə baxdım. Düşündüm ki, şəhidin doğmalarından biridir. Odur ki, soruşdum:

-Bağışlayın,siz bu şəhidimizin nəyisiniz?

- Bizm peşə liseyinin məzunu olub. Çox tərbiyəli, nümunəvi və əlaçı şagirdimiz idi. Yoldaşları ilə bərabər biz müəlimləri, ustaları da çox sevər, hörmətimizi saxlardı. Hər dəfə buradan keçəndə lövhənin qarşısına gül qoyub ona dua edirəm. Allah rəhmət eləsin. Ələşrəf müəlliməm, Şirvan peşə liseyinin direktoruyam.

Emil Tərlan oğlu Hümbətov 30 oktyabr 1992-ci ildə həmin binanın 5-ci mərtəbəsindəki 25 nömrəli mənzildə anadan olmuşdur. 9-cu sinfi Şirvan şəhər 9 nömrəli tam orta məktəbi bitirdikdən sonra peşə məktəbinin mühasibatlıq şöbəsinə qəbul olub, oranı əla qiymətlərlə bitirib.Diplom alıb. 2010-2012-ci illərdə hərbi xidmətdə olub. Hərbi xidmətdən sonra 4 il qardaş Türkiyə Respublikasında yaşayıb və işləyib. Oradan qayıtdıqdan sonra öz peşəsi üzrə Hacıqabul rayon Atbulaq qəsəbəsində yerləşən MMC-də çalışıb. 2020-ci ilin 27 sentyabrında könüllü olaraq Vətən müharibəsinə yola düşüb. «N» saylı hərbi hissədə topçu və manqa başçısı kimi xidmətə başlayıb. Füzuli, Hadrut rayonlarında ermənilərlə vuruşda qəhrəmanlıqlar göstərib. Onun son döyüşü oktyabrın 11-də Füzulinin Qaraxanbəyli kəndinin düşmənlərdən azad olunması uğrundakı ağır döyüş oldu. Cəsur topçumuz Emil Hümbətov düşmənin bir neçə mövqeyini susdurub texnika və canlı qüvvəsini məhv etsə də, düşmən mərmisindən yayına bilmədi. Ağır yaralandı və ağxalatlıların səyinə baxmayaraq onu həyata qaytarmaq mümkün olmadı.



Hümbətovlar ailəsində olub Emil haqqında bir az da məlumat toplamaq qərarına gəldim. E.Hümbətovun atası əvvəlcə məni oğlunun otağı ilə tanış etdi. Otaqda şəhidimizin həyat yolunu əks etdirən, uşaqlıq, gənclik illərində çəkdirdiyi şəkillər, işlədiyi idarədən, hərbi xidmətdən aldığı fəxri fərmanlar, müxtəlif döş nişanları və kuboklar vardı. Otaq muzeyi xatırladırdı...

Keçib stol arxasında otururuq. Ailə üzvlərindən başqa 2-3 nəfər də yaxın qohumlar da var idi.Əvvəlcə atası Tərlandan oğlu Emil haqqında danışmasını xahiş edirəm.

Müsahibim dərindən köks ötürüb dedi:

-Futbolu çox sevirdi. «Qalatasaray»ın azarkeşi idi. Hamıya kömək etməyə çalışardı.İmkanı daxilində heç kəsi boş qaytarmazdı.

Anası Sevinc dedi:

Müharibəyə gedən gün yağış yağırdı. Hərbi biletini götürüb mənimlə qucaqlaşıb üzümdən öpüb ucadan dedi:

-Ana, darıxma, mənimlə fəxr edəcəksən. O, həm də təbiət vurğunu idi. Evdə qəfəsdə quş, dovşan saxlayırdı...

Bacısı Aytac:

-Ailədə bir bacı, bir qardaş olmuşuq. Çox mehriban idik. Ürəyini mənə açardı. Ailə qurub burdan getsəm də teztez bizə gələr, təzə aldığı «jiquli» maşını ilə qızımla məni Şəhidlər xiyabanına, «Qədir Xum»a aparardı. Üç yaşlı qızım Azra hardansa öyrəndiyi 2 misralıq şeiri dayısına oxuyardı, elə indi də oxuyur.

Xalası Hacı Sonaxanım:

-Biz 10 bacı, bir qardaşıq. Emili öz balalarımızdan ayırmamışıq. Bizi gəlib yoxlamağa həmişə vaxt tapırdı. Evlənməyə tələsmirdi. Demişdim ki, səni özüm evləndirəcəyəm. Razılaşmışdı. Amma erməni gülləsi hamımızın arzusunu ürəyində qoydu...

Vaqif Abbasov, yaxın qonşusu. Azərbaycan Jurnalistlər Birliyinin üzvü:

-Heç yadımdan çıxmır Emil bala. Gözümün qarşısında böyüyüb boyabaşa çatmışdı. Qanacağına, tərbiyəsinə söz ola bilməzdi. Böyüklə böyük,kiçiklə kiçik idi. Onun haqqında nə qədər xoş sözlər desəm, yenə azdır... Allah ona və cəmi şəhidlərimizə qəni-qəni rəhmət eləsin! Vətən müharibəsindəki qələbəmizə görə müzəffər ordumuza, Emil kimi şəhidlərimizə borcluyuq. Qazilərimizə sağlamlıq arzulayıram.

Və sonda onu da öyrənirəm ki, bu ailənin yaxın qohumu, leytenant Fəxrəddin Hümbətov da birinci Qarabağ döyüşündə qəhrəmancasına həlak olub.

Emil Tərlan oğlu Hümbətov ölümündən sonra «Vətən uğrunda» və «Füzulinin azad olunmasına görə» medalları ilə təltif olunmuşdur.

# SON DÖYÜŞÜ ŞUŞADA OLDU



*İnsan insan olur öz hünəriylə,*
*Millət millət olur xeyir -şəriylə,*
*Torpağın bağrına cəsədləriylə*
*Azadlıq toxumu səpdi şəhidlər!*

*B.Vahabzadə*

**Doğrudan da sevimli şairimiz Bəxtiyar Vahabzadənin bu misraları şəhidlərimizə verilən yüksək qiymətdir. Şəhidlər ölmürlər. Onlar ən uca zirvədə dayanırlar. Deyirlər şəhid məzarları yurdun gözəlliyi, xalqın baş ucalığıdır.**

Belə şəhidlərimizdən biri də İsmayılzadə Şəhriyar Əkbər oğludur. O, 7 iyul 1994-cü ildə Şirvan şəhər Hacıqəhrəmanlı qəsəbəsi Qafur Məmmədov küçəsi 17 nömrəli evdə dünyaya göz açmışdır. Zəhmətkeş sürücü ailəsində böyüyüb boy atan Şəhriyar evin sonbeşiyi idi. Allahtəala ismayılovlar ailəsinə 10 övlad versə də, onlardan yalnız 4-ü qalmışdır. İki qardaş , iki bacı.

O doğulduğu qəsəbədəki 12 nömrəli tam orta məktəbi bitirdikdən sonra ali təhsil almağa tələsmədi. Təsərrüfatla məşcul olub sonra fiikrləşərəm -dedi. 2012-2014-cü illərdə quru qoşunlar (piyada) tərkibində hərbi xidməti şərəflə başa vurub geri döndü. Məvaciblə dolanan ata-anasına dayaq oldu. Qardaşbacılarına ev-eşik qurmaqda kömək etdi. Növbə ona çatanda darıxmayın, dedi ata-anasına. Gözaltısı da var idi. Anasına demişdi ki, Qarabağı alaq, sonra elçi gedərsiz...

Özündən 4 yaş böyük qardaşı, iki uşaq atası İsmayılla hərbi komissarlığa gəlib könüllü olaraq cəbhəyə getmək üçün ərizə yazdılar. Komissarlıq 2 uşağı olduğu üçün İsmayıla hələlik gözləməyi məsləhət gördü, lazım olarsa çağırarıq, - dedilər. Şəhriyar isə 2020-ci ilin 28 sentyabrında Vətən müharibəsinə getdi. Döyüşçü kimi ilk dəfə Zəngilan uğrunda döyüşə başladı. Daha sonra əsgər yoldaşları ilə Qubadlı, Füzuli və tarixi mədəniyyət beşiyi olan Şuşamıza qədər irəlilədilər. Ordumuzun cəsarətli hücumlarından qorxuya düşən erməni cəlladları hərbi texnika və sursatlarını da qoyub qaçırdılar....

Noyabrın 8-i həmyerlimizin son döyüşü oldu. Mərmi yarasından şəhid oldu. İcra hakimiyyəti rəhbərinin, ictimaiyyət nümayəndələrinin, hərbi komissarlıq, hüqüq mühafizə orqanları əməkdaşları və bir qrup hərbiçi zabit və əsgər yoldaşlarının iştirakı ilə Şəhidlər Xiyabanında torpağa tapşırıldı.

Qəhrəman şəhidimizin ailəsində olarkən evlərində onun keçdiyi döyüş yolunu əks etdirən fotoşəkillər diqqətimi cəlb etdi. Hər şəkilinə baxanda onun gözlərində həyat eşqi görürdüm. Ölümünə inanmıq istəmirdim. Axı, necə inanaydım. Şəhidlər ölmür axı...

Bibisi Yasəmənin dediklərindən:

-Şuşadan mənə zəng edib vəziyyətimlə maraqlananda soruşdum ki, bibi qurban nə vaxt gəlirsən, səni gözləyirik axı. Ucadan güldü və dedi ki, bibi can, özündən muğayat ol, sağlıq olsun tezliklə gələcəm,elçiliyə hazırlaş...

Bacısı Səkinə:

-Bizə tez-tez gələrdi. Çox mehriban və bacıcanlı idi.

Bacısı oğlu, 3-cü sinif şagirdi Ömər:

-Bacımla məni dərsdən çıxanda əlimizdən tutub evimizə gətirərdi. Ona söz vermişdim ki, dərslərimi yaxşı oxuyub polis olacağam. O da bunu istəyirdi.

Bacısı qızı Maral, 2-ci sinif şagirdi:

-Dayım qardaşım Ömərlə məni çox sevirdi. Mənə deyirdi ki, sən də oxu müəllim ol. Buna görə yaxşı oxumaq lazımdır...

Anası Fatimə:

- Sonbeşiyim idi. Heç vaxt sözümdən çıxmazdı. Deyirdi ki, ana, tezliklə səni sevindirəcəyəm. Kövrəlir, sözünün dalını deyə bilmir...

Elə mən də kövrəlirəm. Qəbri nurla dolsun!

*Musaxan HEYDƏRLİ*




# BİZ ÇOXUQ, LAP ÇOX

**31 dekabr - bu gün Azərbaycan Xalqının tarixində ən yadda qalan, ən şərəfli günlərdən biri - Dünya Azərbaycanlıların həmrəyliyi Günüdür!**

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri ümummilli liderimiz Heydər Əliyev dünya Azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi günü elan etdi. Sonra bu təşəbbüs mərkəzi hakimiyyətin dəstəyini də qazandı və artıq bütün Azərbaycanlılar rəsmən bu günü bayram kimi qeyd edir.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır.

Ümummilli liderimiz ulu öndər Heydər Əliyev 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il mayın 23-də Heydər Əliyevin imzaladığı sərəncamla 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda dərin məzmunlu nitq söyləyən ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirdi. "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" - müdrik rəhbərin bu kəlamları hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.Dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları bu gün də aktualdır.

31 dekabr tarixinin bütün dünya azərbaycanlılarının birlik, həmrəylik günü kimi hər il böyük təntənə və qürur hissi ilə qeyd olunduğunu bildirən ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün ulu öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi elan edilmişdir. Dövlət başçısı prezident cənab İlham Əliyevin imzaladığı sərəncamlarla Bakı şəhərində 2006-cı il martın 16-da Dünya Azərbaycanlılarının II, 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də isə IV qurultayının keçirilməsi diaspor quruculuğu işinə əsaslı töhfə vermişdir. Bu qurultaylar dünya azərbaycanlılarının birlik və həmrəyliyinin təntənəsi baxımından mühüm tarixi əhəmiyyət kəsb edir. Eyni zamanda qurultaylar bir daha dünya azərbaycanlılarının Prezident İlham Əliyevin və Azərbaycan dövlətinin ətrafında sıx birləşdiyini təsdiqlədi.

Xalqımızı 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir, şəhidlərimizin unudulmaz xatirəsini bir daha hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailə üzvlərini, Vətən Müharibəsində sağlamlığını itirən döyüşçülərimizi, veteranları, hazırda xidmətdə olan şəxsi heyəti bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, arzulayırıq.

**Vüsal Musayev,**
**Şirvan şəhər prokurorluğunun müstəntiqi, III dərəcəli hüquqşünas**

# XALQIMIZIN QƏHRƏMANLIQ SƏHİFƏSİ

**Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 31 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet ordusunun hərbi hissələri Bakı şəhərində müstəqil dövlət yaratmaq və öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədib. Bu qanlı cinayət insanların azadlıq eşqini söndürə bilməyib, xalqımız qanı bahasına da olsa, öz dövlət müstəqilliyinə qovuşub.**







Otuz bir il əvvəl Azərbaycan xalqına qarşı törədilmiş cinayət əslində bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olub, 638 nəfər yaralanıb və xəsarət alıb, 841 nəfər qanunsuz olaraq həbs edilib, nəticədə insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozulub.

Bakıdakı 20 Yanvar hadisələrindən sonra Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev keçirdiyi mətbuat konfransında bu vəhşiliyi kəskin şəkildə pisləyib, əliyalın xalqa qarşı törədilən terroru hüquqa, demokratiyaya, insanlığa zidd aksiya adlandırıb. Hələ sovet imperiyasının mövcud olduğu bir dövrdə ulu öndərin bu cür bəyanatla çıxış etməsi bir daha sübut etdi ki, siyasətdə böyük addımları ancaq dahi şəxsiyyətlər atırlar.

Vətən yolunda şəhidlik əsl qeyrət, hünər, şərəf və ləyaqət zirvəsidir. Ulu öndər Heydər Əliyev 1990-cı ilin 20 Yanvar gecəsi məhz belə bir zirvəni fəth edib əbədiyaşarlıq hüququ qazanan Vətən oğullarının fədakarlığını yüksək qiymətləndirərək deyib: "20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnəkdir. Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər. Ona görə də bu şəhidlərin həlak olması bizim üçün nə qədər qəm-qüssə doğurursa, nə qədər ağır itkidirsə, o qədər də xalqımız üçün qəhrəmanlıq nümunəsi kimi, örnək kimi bizim milli sərvətimizdir, milli iftixarımızdır".

Ümummilli lider Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətə qayıtdıqdan sonra faciəyə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib. Milli Məclisin 1994-cü ilin fevralında keçirilən xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirilib, müzakirələrin yekunu olaraq həmin ilin martında "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edilib.

"Şəhidlər ölmür, onlar bizim qəlbimizdə əbədi yaşayırlar", - deyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəfli tarixidir. Hər il faciənin ildönümündə milyonlarla insan paytaxtın ən yüksək nöqtəsində salınan Şəhidlər Xiyabanını ziyarət edir, qəhrəmanlarının xatirəsini anır. Şəhidlərin əziz xatirəsini dərin ehtiramla yad edərkən ümummilli liderimiz Heydər Əliyevin bu fikirləri bir daha yada düşür: "20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar millətimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəmanlıq rəmzidir. Onların tökülən qanı bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".

Allah şəhidlərimizə rəhmət eləsin!

**Həmidə Fazilqızı,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# QAZİ NƏSRƏDDİN: «QƏLƏBƏ BÜTÜN AĞRILARIMIZI UNUTDURDU»

## Biri mayor olmaqla xeyli erməni əsgərini məhv edən qazimiz Nəsrəddin Abışovla müsahibə

**O, 19 may 1997-ci ildə Şirvan şəhər 20 Yanvar küçəsi bina 17, mənzil 29-da anadan olmuşdur. Şəhər 16 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirdikdən sonra Şirvan şəhər peşə liseyinin radiotexnika şöbəsini də qurtarıb həqiqi hərbi xidmətə yola düşdü. Quru qoşunları hissəsində xidmət başladı.**



Yaşadığı evdə çay süfrəsində əyləşib orta boylu, çevik qazimizlə söhbətə başlayıram:

**-Eşitmişəm Aprel döyüşlərində də iştiak etmisən?**

- Döyüşçülərimiz əsil qəhrəmanlıq göstərdilər. İtkilərimiz olsa da qalib gəldik, bir neçə əhəmiyyətli yüksəkliyi ələ keçirdik. Mən döyüşçü yoldaşlarımla düşmənə aman vermir, lazım gələndə yaralıları da döyüş meydanından çıxarıb xəstəxanalara yola salırdıq. Növbəti əməliyyatda kəllə-beyin zədəsi aldım. Xəstəxanada bir ay müalicə olunduqdan sonra hərbi hissəmizə geri döndüm. Az sonra hərbi xidmətimi başa vurub evə qayıtdım.

**-Bəs ikinci Qarabağ -Vətən müharibəsinə nə vaxt getdin?**

2020-ci il sentyabrın 27-də müharibə başlayan gün evdən xəbərsiz səfərbərlik və hərbi çağırış idarəsinə gedib könüllü olaraq cəbhəyə getmək üçün ərizə verdim. Ərizəmi qəbul edib dedilər ki, get evdəkilərlə sağollaş, sabah yola düşürsən. Sevincimdən az qala uçurdum. Evə gəlib anama dedim ki, məni qucaqla, cəbhəyə gedirəm...

Və beləcə artıq sentyabrın 29-da döyüşə girdim. Füzuliyə, Cəbrayıla və Şuşaya, Xocavəndə qədər getdik. Ermənilərə gücümüzü göstərdik.

**-Bildiyimə görə döyüşdə yaralanmısan. Bu necə oldu?**

-Mənim uşaqlıqdan idmanın yüngül atletika, qaçış növünə həvəsim olub. Bu gün də səhərlər təmiz havada qaçmağı sevirəm. Ona görə də fiziki cəhətdən gümrəham. Bu isə əsgərlikdə köməyimə çatdı. Hərbi hissədə qumbaraatan idim. Qumbaraatanımla bir döyüşdə biri mayor olmaqla 3 ermənini gəbərtmişəm . Müsahibim bir az fikrə gedib davam edir:

-Xocavənddə çox ağır döyüşümüz oldu. Ermənilər əlverişli yerdə mövqe tutub bizi irəliləməyə qoymurdular. Onların atəş nöqtəsini susdurmaq lazım idi. EQD-5 qumbaraatanımla 3-cü dəfə ermənilərin atəş nöqtəsini vura bildim. Bir neçə erməni əsgəri də orda məhv olmuşdu. Bölüyümüz irəliləyirdi. Pulludağ deyilən yüksəklikdə snayper gülləsindən yaralandım. Növbəti dəfə düşmən mövqeyini vurmaq istəyirdim ki, düşmənin snayper gülləsi qumbaraatanımın mərmisinə dəydi. Bəxtim gətirdi ki, mərmi partlamadı. Güllə ora dəyib sürüşərək döş qəfəsimin 7-ci qabırğasının arasından içəri keçdi. Cibimdə də 20 qəpik pulum var idi. Güllə onu da əzmişdi. (pulu da alıb xeyli baxıram...)

**-Bəs necə xilas oldunuz?**

-Şirvandan Kamran adında əsgər köməyimə çatdı. 2 döyüşdü yoldaşımla ilə bərabər bizi xəstəxanaya yola saldı. Onu da deyim ki, komandirimiz (tabor) Etibar Hüseynov (mayor idi) o da qıçından yaralanmışdı. Beyləqan xəstəxanasında birgə müalicə alırdıq. Sağaldıqdan sonra Zəngilana getdik.

**-Sonrakı döyüşlərin haqqında danış.**

-Cəbrayıl rayonunda ağır döyüşümüz oldu. Amma kəndin adı yadımda deyil. Biz ancaq irəliləyirdik.

**-Ordudan nə vaxt tərxis olundun? Yaran səni incitmir ki?**

-2020-ci ilin 8 dekabrında Prezident Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə evə buraxıldıq. Yaram sağalsa da, bəzən ağrılarım olur. Üzümdə və boyun nahiyəmdə çoxsaylı mərmi qəlpələri var. Hələ ki, o çox əziyyət vermir. Qələbəmiz bizə bütün ağrı-acını unutdurdu.

**-Döyüş təltifin varmı?**

- «Döyüşdə fərqlənməyə görə» və digər medala layiq görülmüşəm.

Öyrənirəm ki, qəhrəmanımız N.Abışov dörd il bundan əvvəl atası, Çernobıl əlili Rüstəmi itirib. Anası Qəmzə evdar qadındır. Bacıları Ravanə və Əfsanə, qardaşı Yusif ev-eşik sahibidirlər. Qarabağımızın azad olunması, Nəsrəddinin sağsalamat geri qayıtması onlar üçün əsl toy-bayrama çevrilmişdir.

N.Ağışov söhbətinin sonunda dedi ki, şəhidlərimizə Allahdan rəhmət, bütün qazilərimizə can sağlığı, şəfa diləyirəm. Ordumuzda əsgəri borclarını yerinə yetirənlərə uğurlar arzulayıram.

**Musaxan HEYDƏRLİ,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**


SCHOOL-STUDİO OF BAKU MUSIC ACADEMY – 40!
"FIRST INTERNATIONAL COMPETITION OF PERFORMERS OF ACADEMIC, FOLK AND JAZZ MUSIC"
(The Project Author - Tarlan Seyidov)
DIPLOMANT
Piano
FATIMA ABBASLI
II category (13 - 16 years)
Azerbaijan, Shirvan, Music School
Teacher – Afsuna Naghiyeva
Chairman of the Jury: Rector of Baku Music Academy, People's Artist of USSR and AR, Professor Farhad BADALBEYLI
Co-Chairman of the Jury: Director of the BMA School-studio, Honored Art Worker of AR, Doctor of Arts, Professor Tarlan SEYIDOV
The members of the Jury: MAHARRAMOVA H., GULIYEVA N., RIMAZI N., ABBASOVA E., SVITOVA T.
Baku - 2020


SCHOOL-STUDİO OF BAKU MUSIC ACADEMY – 40!
"FIRST INTERNATIONAL COMPETITION OF PERFORMERS OF ACADEMIC, FOLK AND JAZZ MUSIC"
(The Project Author - Tarlan Seyidov)
INCENTIVE DIPLOMA
Piano
JALA ALIYEVA
I category (9 - 12 years)
Azerbaijan, Shirvan, Music School
Teacher – Vusala Hajiyeva
Chairman of the Jury: Rector of Baku Music Academy, People's Artist of USSR and AR, Professor Farhad BADALBEYLI
Co-Chairman of the Jury: Director of the BMA School-studio, Honored Art Worker of AR, Doctor of Arts, Professor Tarlan SEYIDOV
The members of the Jury: MAHARRAMOVA H., GULIYEVA N., RIMAZI N., ABBASOVA E., SVITOVA T.
Baku - 2020

# BEYNƏLXALQ MÜSABİQƏDƏ FƏRQLƏNDİK

**Şirvan şəhər Uşaq Musiqi məktəbi ötən 2020-ci ilin uğurlarının sırasına yeni bir nailiyyət əlavə etdi. Öz uğurlu layihələri ilə seçilən,respublikamızın akademik musiqi təhsilində inkişafını qarşısında məqsəd qoyan Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının praktiki və elmi-eksperimental bazası-orta ixtisas musiqi məktəb-studiyanın 40 illiyinə həsr olunmuş akademik,xalq və caz musiqisi ifaçılarının Birinci Beynəlxalq Müsabiqəsi bu dəfə də musiqi ictimaiyyətinin güclü marağına səbəb oldu.**


SCHOOL-STUDİO OF BAKU MUSIC ACADEMY – 40!
"FIRST INTERNATIONAL COMPETITION OF PERFORMERS OF ACADEMIC, FOLK AND JAZZ MUSIC"
(The Project Author - Tarlan Seyidov)
INCENTIVE DIPLOMA
Violin
HUSEYN FARAJLI
I category (9 - 12 years)
Azerbaijan, Shirvan, Music School
Teacher – Mahir Farajov, Concertmaster – Ulkar Jabbarli
Chairman of the Jury: Rector of Baku Music Academy, People's Artist of USSR and AR, Professor Farhad BADALBEYLI
Co-Chairman of the Jury: Director of the BMA School-studio, Honored Art Worker of AR, Doctor of Arts, Professor Tarlan SEYIDOV
The members of the Jury: FOMENKO L., GULIYEVA G., HUSEYNOVA L., ABBASZADA N., MAMMADOV A.
Baku - 2020

Xalq musiqimizin təbliğinə həsr olunmuş müsabiqələri ilə milli dəyərlərimizə olan bağı hər zaman önə çəkən BMA məktəb -studiya bu dəfə dünya musiqisinin improvizəyə ,azad ifaya açıq olan bir qoluna-caza diqqətimizi çəkməklə ifaçılarımızın repertuarına yeni rəng qatdı desək, yanılmarıq.

Doğma məktəbimiz də bu müsabiqəyə bir neçə şagirdlə qatıldı və əldə etdiyimiz uğurlar sevindiricidir. Beynəlxalq müsabiqə olduğu üçün iştirakçıların müxtəlif ölkələri təmsil etmələri maraqlı rəqabət ortaya qoyurdu. Məhz sağlam rəqabət inkişafın əsasını təşkil edir. İkinci yaş qrupu üzrə məktəbimizin şagirdi Fatimə Abbaslı fortepiano üzrə diplomant olaraq uğura imza atdı-.Aşağı qrup üzrə iki şagirdimizin -Jalə Əliyevanın (fortepiano) və Hüseyn Fərəclinin (violin) həvəsləndirici diplom ilə qiymətləndirilməsi sevindiricidir.

Şagirdlərin gələcəkdə daha da həvəslə çalışması üçün stimul olan bu nəticələr məktəbimizin zəhmətkeş müəllimlərinin uğurlu işidir. Bu nailiyyətləri bizə bəxş edən şagirdlərə və onların müəllimləri Əfsunə,Nağıyevaya Vüsalə Hacıyevaya və Mahir Fərəcova dərin təşəkkürümüzü bildiririk.

Məktəbimizin direktoru Əbülfət İsmayılov şagirdlərin uğurlu nəticələr qazanması üçün əlverişli şəraiti yaradaraq köməyi,qayğısı ilə bizim yanımızda olduğunu həmişə hiss etdirib. Uğurlar kollektivin birgə işinin nəticəsidir. Uğurlarımız bol olsun.

**Əfzunə Nağıyeva,**
**Fortepiano şöbəsinin müdiri**

# MƏNALI HƏYATIN BƏZİ ANLARI

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Milli Konservatoriyasının 20 illiyi münasibətilə və Azərbaycanda milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə konservatoriyanın professoru Nazim Kazım oğlu Kazımov 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.**

Arada mənə zənglər olurdu. Telefonda səs: "Nazimdir, həmyerlin. Əli Bayramlılı". Fikrə gedirdim. Axı Əli Bayramlıda Nazim adlı yaxınım, dostum, yoldaşlıq etdiyim adam yoxdur. Heç orta məktəbdə oxuyanda da sinfimizdə Nazim deyilən dostum olmayıb.

"Bəs bu kim ola?" Səsi tanış gəlir. Telefonda dayanıb-durduğumu görən şəxs məni çox da intizarda qoymayaraq: "Nazim Kazımovdur" deyirdi. Hər ikimizi gülmək tuturdu. O zamanlar Nazim müəllim respublika Təhsil Nazirliyində inspektor, aparıcı mütəxəssis, baş mütəxəssis, idarə rəisinin müavini vəzifələrində çalışırdı. Eyni zamanda nazirliyin həmkarlar təşkilatının sədri idi. Mən də Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda *(hazırda Təhsil İnstitutu)* şöbə müdiri idim. Onda indiki kimi mobil telefon nə gəzirdi ki, yaddaşa yazasan.

Sonralar Nazim Azərbaycan Milli Konservatoriya nəzdində Musiqi Kollecinin *(əvvəlki Asəf Zeynallı adına Musiqi Texnikumunun)* direktoru, mən də institutda işləyə-işləyə Bakı Ali Pedaqoji Qızlar Seminariyasında *(hazırda Bakı Qızlar Universiteti)* elmi işlər üzrə prorektor oldum. 2001-ci ildə institutun elmi katibi vəzifəsində çalışıram.

Nazim eyni zamanda Milli Konservatoriyanın professorudur.

Sonralar da mənə zəng edəndə sözünə belə başlayardı: "Nazimdir, həmyerlin. Əli Bayramlılı". Bu, hər ikimizə ləzzət verirdi. Şəxsiyyətlərarası münasibətlərdə səmimiyyətdən, təbiilikdən, qarşılıqlı anlamadan gözəl heç nə ola bilməz.

Təhsil sahəsində nüfuzlu, sayılıb-seçilən Nazim müəllimin belə danışığı məhz onun sadəliyindən, dosta, yoldaşa yüksək dəyər verməsindən irəli gəlir.

*(Əslində Nazim Kazımov əslən Əli Bayramlılı (Şirvanlı) deyil. Bu barədə sonra).*

Adam var ki, sərəncamında iki nəfər işçi olur, amma iddiası yerə-göyə sığmır. Mən Nazimi tanıdığım 50 ildə onu son dərəcə sadə, istiqanlı, təbii insan, həqiqi dost və yaxşı yoldaş, öz işinə, vəzifə borcuna məsuliyyətlə yanaşan, zarafatcıl olduğu qədər də ciddi bir şəxs, şəxsiyyət kimi görmüşəm.

Mən 1975-ci ildən Bakıda işləməyə başlamışam. Doğma Əli Bayramlıdan *(Şirvan şəhərindən)* gəlib adını çəkdiyim institutda elmi işçi kimi fəaliyyət göstərmişəm. Nazim Kazımovla tanışlığımızın tarixi isə bir qədər əvvələ gedib çıxır. Nazimin təyinatını bizim şəhərə *(Əli Bayramlıya)* - Musiqi Məktəbinə vermişdilər.

Nazim Kazım oğlu Kazımov Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunun xalq çalğı alətləri şöbəsinin tar sinfində, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində, daha sonra Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyanın (hazırda Bakı Musiqi Akademiyası) Xalq musiqi fakültəsində professor Səid Rüstəmovun sinfində *(tar ixtisası üzrə)* təhsil almışdır.

Nazimin yüksək ifaçılıq məharətinə, xalq musiqisinə, xüsusən də muğamlarımıza dərindən bələd olduğunu görən



Səid Rüstəmov yazırdı: "Taleyin gərdişi ilə tələbəm olan Nazim Kazımov çox qabiliyyətli və həssas musiqiçidir. Onun ifaçılıqda və pedaqoji fəaliyyətdə böyük uğurlar qazanacağına əminəm".

Nazim Əli Bayramlı *(Şirvan)* şəhərindəki Musiqi Məktəbində əvvəlcə müəllim, sonra isə direktor müavini və direktoru olmuşdu. Doğrudur, yaxın tanışlığımız yox idi. Amma bir-birimizi tanıyır, rastlaşanda salamlaşırdıq. Sonralar yolumuz Bakı şəhərinə düşdü. Burada daha yaxından tanış olduq.

1975-ci ildə Maarif Nazirliyi *(hazırda Təhsil Nazirliyi)* Hökumət evinin ikinci mərtəbəsində yerləşirdi. Hökumət evi ilə bizim institutun arası çox yaxındır, piyada 5-10 dəqiqəlik yoldur. O zamanlar müxtəlif məsələlərə bağlı mən də teztez nazirliyə gedirdim. Məni də müəllimlərin avqust *(hazırda sentyabr)* konfranslarında hansısa rayona nazirliyin nümayəndəsi kimi ezamiyyətə yollayırdılar, yaxud məktəblərə yoxlamalara cəlb edirdilər. Nazimlə nazirlikdə tez-tez rastlaşır, hal-əhval tuturduq.

Bir ara Nazim müəllim bizim institutun dissertantı oldu. Professor Vidadi Xəlilovun elmi rəhbərliyi ilə 1997-ci ildə "Ümumtəhsil məktəblərində şagirdlərin musiqi qabiliyyətlərinin inkişafında muğam nümunələrindən istifadə üzrə işin sistemi" mövzusunda dissertasiya müdafiə edərək, pedaqoji elmlər namizədi (hazırda pedaqogika üzrə fəlsəfə doktoru adlanır) elmi dərəcəsi aldı. Həm dissertasiyanın müzakirəsində, həm də müdafiəsində mən də iştirak və çıxış etdim.

Nazim Kazımov əslən Naxçıvanlı olsa da, Əli Bayramlı *(hazırda Şirvan)* şəhəri ilə sıx bağlıdır. Əvvəla, on altı il burada işləmişdir, yerli camaatla ünsiyyətdə olmuşdu. İkincisi, bu şəhərin adlı-sanlı, nüfuzlu şəxslərindən birinin qızı ilə ailə qurmuşdu.

Nazim kəsdiyi çörəyə sadiq insandır. Suyunu içdiyi, havasını udduğu Əli Bayramlı *(Şirvan)* şəhərini həmişə hörmətlə yad edir, xatırlayır, özünün doğma şəhəri hesab edir. Bu şəhər camaatından kimsə onun köməyinə ehtiyac duyanda əlindən gələni əsirgəmir. Ona görə də əlibayramlılar onu çox sevirlər.

Söz düşəndə Nazim müəllim deyir: "Burada nə var ki? Harada doğulmağımızdan asılı olmayaraq hamımız azərbaycanlıyıq. Bir-birimizə münasibətdə mehriban, səmimi, ədalətli, humanist olmalıyıq. Bir-birimizdən yardım əlimizi kəsməməliyik. Bütün şəhər və rayonlarımız, kənd və qəsəbələrimiz bizə doğmadır. Torpaqlarımızın hər qarışı bizə əzizdir, ölkəmizin hər guşəsinə, torpağına, daşına, çayına, gölünə, dənizinə, meşəsinə, dağına, düzünə, maddi və mənəvi sərvətlərinə görə milli iftixar hissi keçirməliyik!"

Nazim harada işləməyindən asılı olmayaraq hər yerdə hörmət və nüfuz qazanıb, yeni, təkmil iş üslubuna görə fərqlənib. O, idarəetmə sahəsində yüksək bacarığa və təşkilatçılıq qabiliyyətinə malikdir. İstər Əli Bayramlı *(Şirvan)*, istərsə də Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində direktor olarkən pedaqoji kollektivin, həm də şagird və tələbələrin sevimlisinə çevrilib. Hazırda o, Milli Musiqi Konservatoriyasının professorudur. Yeni təlim texnologiyalarından, səmərəli metodlardan faydalanaraq, öz məşğələlərini qurur, auditoriyanı uğurla idarə edir, nəzəri və metodik hazırlıq nümayiş etdirir. Tez-tez televizorda çıxış edir, əsərləri çap olunur.

Nazim müəllim "Ümumtəhsil məktəblərində muğamların tədrisi məsələləri" *(2000)* və "Səid Rüstəmov" *(2007)*, "Asəf Zeynallı" *(2009)* adlı monoqrafiyaların müəllifi; eyni zamanda ümumtəhsil məktəblərinin I, V, VII və VIII sinifləri üçün "Musiqi" dərsliklərinin həmmüəllifidir. Həmin dərsliklər həm azərbaycanca, həm də rusca nəşr edilərək, məktəblərə çatdırılır.

Nazim müəllim "Tar, kamança, qanun ixtisası üzrə pedaqoji təcrübə proqramı" *(1998)*, "Ümumtəhsil məktəblərində muğamların tədrisi və tərbiyəvi əhəmiyyəti" *(1996)*, "Tar ilə fortepiano üçün pyeslər" adlı proqram, metodik vəsait və tövsiyələr çap etdirmiş, onlarla elmi məqalə yazmışdır.

Nazim Kazım oğlu Kazımov Əməkdar incəsənət xadimidir.

Ötən 2020-ci il professor Nazim Kazımov fərəhli, sevincli oldu. Əvvəla, erməni faşist işğalçıları üzərində qələbəmiz onda hədsiz sevinc yaratdı. İkincisi, anadan olmasının 70-ci baharını qarşıladı.

Daha bir şad xəbər aldı. Ölkə Prezidenti cənab İlham Əliyevin 30 dekabr 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Milli Konservatoriyasının 20 illiyi münasibətilə və Azərbaycanda milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə konservatoriyanın əməkdaşları orden və medallarla təltif edildi. Professor Nazim Kazımov da yüksək mükafata - 2-ci dərəcəli "Əmək" ordeninə layiq görüldü.

Əzizimiz Nazim müəllim, 2021-ci il də səninçün uğurlu olsun.

Anadan olmağının 70 illiyini təbrik etmişdik. Ordenin də mübarək!!!

**Akif ABBASOV**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*

**Redaksiyadan:** *16 il indiki Şirvan şəhər Uşaq Musiqi Məktəbində müəllim, direktor kimi fəaliyyət göstərmiş Nazim Kazımovun hər bir uğuruna sevinmişik. Yüzlərlə oğlan və qızın musiqi təhsili sahəsində inkişafında xüsusi əməyi olan Nazim müəllimi səmimi insan, ziyalı kimi sevir, hörmət edirik.*

Yeni ordenin mübarək, Nazim müəllim! Uzun ömür, möhkəm sağlamlıq arzulayırıq!

**Tanıyanlarının «Sədi müəllim» deyə müraciət etdikləri Seyidulla Xudaş oğlu Ağayevin bu günlərdə 70 yaşı tamam oldu. Sədi müəllim sambo üzrə SSRİ idman ustasıdır. 1968-ci ildə (17 yaşında) SSRİ birinciliyindən şəhərimizə ilk medalı gətirmişdir. Sovetlər dönəmində bu uğuru hər idmançı qazana bilmirdi.**

## 70 YAŞIN MÜBARƏK, SƏDİ MÜƏLLİM!



Azərbaycan Respublikasının Əməkdar məşqçisi, Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və idman işçisi S.Ağayev 1972-ci ildə şəhərimizdə cüdonun bünövrəsini qoymuşdur. 1990-cı ildə şəhərimizdə Şərq təkbətək döyüş növləri federasiyasının bünövrəsini qoymuş, onun prezidenti olmuşdur.

Sədi müəllim Kİyev, Xarkov, Lvov, Kişinyov, Tallin şəhərlərində, Krasnoyarsk vilayətinin Ust-Kut şəhərində ümumittifaq yarışlarında cəsarətlə yarışmışdır. 1978-ci ildə sambo üzrə V ənənəvi Ümumittifaq turnirində II yeri tutaraq gümüş medal almışdır.

S.Ağayev şəhərimizdə bacarıqlı məşqçi kimi də tanınır.

Karate üzrə ustalar Vidadi Günəşov, Sadiq Məmmədov, Malik Cəbiyev, Tarverdi Allahverdiyev, Nizami Suvarov, Taleh İbadov, Əliqulu Abbasov onun səyi ilə bu sahəyə cəlb olunmuşlar.Şəhərimizin karate üzrə yığma komandasını 1991-ci ildə Azərbaycan çempionatına S.Ağayev hazırlamışdır.

Sədi müəllimin idman uğurları, məşqçilik fəaliyyəti barədə el arasında deyildiyi kimi, bir kitab yazmaq olar. Amma həddindən artıq təvazökar, prinsipial insan olan Sədi müəllim buna razılıq vermir. Hətta onun haqqında kitab yazmaq təklifimi də qəbul etməyib.

O səmimi ailə başçısıdır. Oğlu hazırda Milli Ordudadır. Vətən müharibəsinin iştirakçısıdır.

S.Ağayev- 70 yaşlı pəhləvanımız, şəhərimizin idman aləmində sözünü demiş dostumuz haqda daha nə yazmaq olar?! Çox mətləbləri açıb yazmaq olar. Amma onları növbəti yubileyinə saxlayırıq. Bir məqamı isə qeyd etməmək olmaz. Bunu xüsusilə onu yaxından tanımayanlara tanıtmaq üçün yazırıq.

Sədi müəllim düz kişidir. Kimliyindən, vəzifəsindən asılı olmayaraq nöqsanı da, yaxşı keyfiyyətini düz üzünə deyən kişidir. Hətta yaxşı münasibətdə olduğu çiyin yoldaşının səhvini ona bağışlamır. Gəncliyində də belə olub, bu gün də belədir. Hətta yarızarfat, yarıciddi deyir ki, filankəslə (burada ad, soyadı çəkməyi lazım bilmirik) kabinetində dava da etmişəm. Digər yoldaşlarım bizi sakitləşdirmək üçün çox «əziyyət» çəkiblər. Amma sonradan bir-birimizi başa düşmüşük. Kin-küdurəti yaxın qoymamışıq.

Sədi müəllim prinsipial insandır. Haqqı nahaqqa vermir. Haqsızı susdurmaq üçün bəzən qələmə də sarılır. Haqq öz yerini tapana kimi aidiyyatı orqanlara müraciət edir.

Kiminsə onun bu hərəkətindən xoşu gəlməsə də, Sədi müəllim geri çəkilmir...

70 yaşlı pəhləvanımız, düz kişiyə-Sədi müəllimə möhkəm cansağlığı arzulayırıq. Qismət olsun növbəti yubileylərində haqqında yazı hazırlayaq. Çünki Sədi müəllimin ömür yolu gənclərimiz üçün örnəkdir.

**F.RƏHİMOV**

## «İŞIQ»- 2021
## ƏZİZ OXUCULAR!

Şirvan şəhərinin ictimai-siyasi qəzeti "İŞIQ"a 2021-ci ilin 1-ci 6 ayı üçün abunə yazılışı davam edir. 6 aylıq abunə haqqı 14 manatdır. "İşıq"a 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar. H\ h- AZ39AIIB 33060019444100281141. VÖEN -2100104521. İndeks 66858 "İşıq"a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,

Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650